# Rəşad Məcid niyə "Qanun" nəşriyyatından narazı qaldı? – REPORTAJ

**Sevindirici haldır ki son vaxtlar "kitab" sözünü çox işlətməyə başlamışıq. Düzdür, hələ kitab oxumaq mərhələsinə keçid etməmişik, amma buna da şükür. Yavaş-yavaş oxuyarıq da...Qaçmır ki...**

Bu gün Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı İdman SarayındaVI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı baş tutdu. Nəsiminin 650 illiyinə həsr olunan və 3 gün davam edəcək sərgiyə maraq çox böyük idi.

Bundan əvvəlki sərgilərdə olmadığım üçün yalan deyə bilmərəm, amma ilk dəfə idi ki bu qədər adamın kitab üçün toplaşdığını görürdüm.

Elə sərginin baş tutduğu zala daxil olan kimi "Qanun" nəşriyyatına ayrılmış stendi gördüm. Ən




çox adam elə bura toplanmışdı. Şahbaz Xuduoğlunun kefi kök görünürdü.

Stendin düz yanında gözəl qızlar çaxır şüşələrinin arxasında dayanıb ziyarətçilər üçün qədəhləri doldururdular. Elə nə məsələ olduğunu öyrənmək istəyəndə, Rəşad Məcidi gördüm. "Qanun" nəşriyyatında dərc olunmuş "Qələmsiz yazılanlar" kitabını oxucuları üçün imzalayırdı. Təzəlikcə bu kitabını mənə hədiyyə etmişdi deyə izdihamın içinə soxulmadım. Rəşad Məcidin başının Aqil Abbasla söhbətə qarışdığını görüb aradan çıxdım.

Bir-iki addım atmışdım ki "XAN" nəşriyyatının stendinə çatdım. Müşfiq Xan nəşr etdikləri kitabların önündə fəxarət hissi ilə dayanmışdı, amma yorğunluğu da hiss olunurdu. Şəmil Sadiq isə həmişəki kimi səliqəli geyimi və saç düzümündə idi. Hamıyla gülərüzlə nələrdənsə danışırdı.

Birtəhər Müşfiq Xanı tutub sərgiylə bağlı fikirlərini öyrəndim:

**- Sayca altıncı kitab sərgisidir. İki ildən bir keçirilən bu sərgiyə maraq hər dəfə bir az daha artır, amma istəyərdim ki, İstanbul, London, Moskvada keçirilən kitab sərgiləri, yarmarkalar kimi böyük maraq olsun. Yenə də maraq böyükdür, ilk gündə bu qədər adamın gəlməsi çox gözəldir. Sərginin müddətinin daha uzun olmasını da istəyərdim. Kitab sərgisi üçün 3 gün azdır. Digər şəhərlərdən, rayonlarımızdan gəlmək istəyənlər var. Belə sərgilərin rayonlarda, bölgələrimizdə də keçirilməsi çox gözəl olardı.**

Oxucuların daha çox hansı kitablar ilə maraqlandığını da öyrənməyə çalışdım:

- Ən çox maraq həmişəki kimi detektiv və macəra janrında olan kitablaradır. Konan Doylun, digər dünya yazarlarının və yerli yazarların detektiv əsərlərinə maraq böyükdür. İkinci yerdə motivasiya kitablarıdır.

**- Yerli müəlliflərdən kimlərə daha böyük maraq var?**

**- Elxan Elatlı, Varis...**

Elə bu adlardan sonra siyahının davamını eşitməməkçün tez üzümü çevirib bu kitabların yanından da sürətlə uzaqlaşmağa çalışıram.

Qəfil kimləsə toqquşuram. "Ulduz" jurnalının baş redaktoru, şair Qulu Ağsəsi görüb sevinirəm:

**- Oooooo, Qulu əmi! Salam! Necəsiz?**

Qulu müəllim həmişəki kimi "necəsiz?" sualına cavab vermir:

**- Salam, Ulucay! Nətərsən?!**

**- Yaxşıyam. Sizin də kitabınız var sərgidə?**




**- Yox əşi, nə kitab? Baxmağa gəlmişəm.**

Həmişə zarafatları ilə adamları güldürən Qulu Ağsəsdən yarı zarafat, yarı ciddi soruşuram:

**- Qulu əmi, klassiklərdən kimin kitabının imza günündə olmaq istəyərdiniz?**

Qulu Ağsəs deyəsən sualı tam ciddi qəbul edir:

**- Nəsimi. Nəsiminin kitabının imza günündə olmaq istəyərdim. Bir də ki... Molla Vəli Vidadi.**

Elə yan tərəfdə Nizami Cəfərov və Əbülfəs Qarayev əllərinə mikrofon alıb Nəsimi haqqında danışırlar. Birdən niyəsə ağlıma Nəsimi ilində şairin başına nə qədər oyun açdığımız gəlir. Elə bil qəfil Afət Fərmanqızı həmin mikrofonu əlinə alır və oxumağa başlayır:

**- Məndə sığar iki cahan! Mən bu cahana sığmazam! Mən! Mən! Mən! Mən! Mən!**

Başımı götürüb bütün bu "mən"lərdən də qaçıram.

Xəyal Rza ilə salamlaşıb AYB-nin kitab stendinin qarşısından da sürətlə keçirəm. Qəşəm Nəcəfzadəni uzaqdan görürəm. Gözümə həm bir az pis, həm də yaxşı dəyir. Yəqin Kəramət xəstəxanaya düşüb deyə pisdir, düşünürəm. Yəqin elə ona görə də yaxşı görünür.

Elə eyni sürətlə yoluma davam edəndə qarşıma rəngbərəng kitablar, dərgilər, oyuncağa oxşayan əşyalarla dolu olan bir stend çıxır. Yaxınlaşıram.

"Altun" nəşriyyatının uşaqlar üçün dərc etdiyi bu kitablar, dərgilər necə də gözəl və işıqlı görünür. Adamın lap ürəyi açılır. Elə bu məqam stend arxasında dayanan gözəl qız mənə yaxınlaşır:

**- Xoş gəlmisən, Ulucay!**

Dostum Aynili tanıyıram:

**- Xoş gördük! Nə gözəldir stendiniz. Bu oyuncaqlar nədir?**

**- Bu bizim nəşriyyatın "Məstan" layihəsidir. Bu layihədə Azərbaycanda ilk dəfə uşaqlar üçün məntiq və zəka inkişaf etdirən oyunlar nəzərdə tutulub. Baxçalar, tədris-inkişaf mərkəzləri üçün kitablar, dərgilər, loqopedik vəsaitlər. Bir sözlə, uşaqlar üçün hər şey.**

**- Maraq necədir bəs?**

**- Maraq möhtəşəmdir! Kitablarımıza da, oyuncaqlarımıza da. Bax bu uşaqlara hərflərin öyrədilməsi üçün olan oyuncaq hərfləri ilk dəfə Azərbaycan dilində biz istehsal etdik.**

Oyuncaq hərfləri əlimə alıram və içimdə əlifbanı yenidən öyrənmək həvəsi yaranır. Kitabların üstündəki rəsmlər, rəngbərnglik məni xoş auraya köklәyir.

Elə bundan sonra fikir verirəm ki, sərgiyə gələn hər kəsin üzündə təbəssüm var, hər kəs məmnun görünür.



Sərgini bir dövrə vurub girişə qayıdıram. Şahbaz Xuduoğlunun hər kəsdən daha xoşbəxt göründüyünü fərqinə varıram.O, stendin qarşısındakı kitab həvəskarları ilə özü şəxsən maraqlanır. Deyəsən kitabları da elə özü əlbəəl satırdı. Pulu da qatlayıb cibinə qoyurdu. Bazar olsun. Məqam tapıb ona da yaxınlaşıram:

**- Şahbaz bəy, kağıza qoyulan vergi haqqında nə deyə bilərsiniz?**

Sualdan sonra əhvalının bir az dəyişdiyini hiss edirəm.

- Hə, kağıza vergi var. O vergini ləğv etsələr, kitabların da qiyməti 15-20 faiz azalar. Qəzet kağızının üzərində ƏDV götürülüb, istərdim ki kitab kağızının da üstündən vergi götürülsün. Elə ölkələr var ki orda kitabın satışına, onun istehsalı üçün lazım olan materiallara vergi yoxdur. Bizdə isə kitabın kağızına da vergi var, satışına da vergi var, hər şeyə vergi var. Kitabın üzərindən vergi götürülməlidir.

**- Son illərdə ölkəmizdə kitaba olan maraq sizcə artıb?**

**- Əlbəttə, artıb. Kitaba marağı biz yaratmışıq! Bu maraq bizim sayəmizdə artıb. İndi oxucuların sayı çoxdur. Biz öz oxucularımızdan razıyıq.**

Həqiqətən sərgidəki hər kəsin məmnun göründüyünün bir daha fərqinə varıram. Yazarlar da, oxucular da. Bəlkə də kitab bayramının olması bir çox problemi unutmağımıza səbəb olur. Bayram abu-havası əhvalımıza təsir edir. Hər kəsin üzündə təbəssüm, hər kəs xoşbəxt, hər kəs məmnun.

Qəfil gözüm Rəşad Məcidə sataşır. Təkcə onun simasında narazı ifadənin olduğunu görürəm. Yaxınlaşıb niyə kefsiz olduğunu öyrənməyə çalışıram:

**- Rəşad müəllim, niyə kefsizsiniz?**

Rəşad Məcid Şahbaz Xuduoğluna baxıb eşitsin deyə yüksək səslə deyir:

**- "Qanun" nəşriyyatından narazıyam!**

**- Niyə? Nolub? Kitabınız satılmır?**

**- Əşi satılır e! 200 kitabım satılıb! İndi kitab qalmayıb deyə oxucular ala bilmir. Bunlara demişdim çox kitab gətirsinlər, gətirməyiblər. İndi mən oxucular üçün nə imzalayım?! - yenə Şahbaz Xuduoğluna baxaraq deyir.**

Öz-özümə içimdə deyirəm "Başıma xeyir! 200 kitabı satılıb, hələ deyinir! Biz 200 kitabımızı çap etdirəmmirik heç!"

Bu məqam Rəşad Məcidin səsi təzədən gəlməyə başlayır. Bu səfər həmişə eşitməyə öyrəşdiyimiz tonda və əhvalda:

**- Yaxşıdı! Camaatın marağı artıb kitaba! Hamı alır, oxuyur!**

Hələ də burada nə işinin olduğunu bilmədiyim şərab şüşələrini və gözəl qızları göstərib deyir:

**- Şərabımız da var!**

Yeri gəlmişkən bu sualıma da cavabı Rəşad Məciddən almaq istəyirəm:

**- Müəllim, şərabla kitabın nə əlaqəsi var axı?**

**- Çox əlaqəsi var! Ən azından hər ikisi də "ab" ilə qurtarır.**

Öz-özümə düşünməyə başlayıram.

Ab! Su!

Bu gözəl məmləkətimizdə kitab yazanların da, satanların da, alıb oxuyanların da ömrü su qədər aydın və uzun olsun!

**Ulucay Akif**